

ƏLİ İNSANOV,
Azərbaycan Respublikası
Səhiyyə Naziri

# HEYDƏR ƏLİYEV VƏ XALQIN SAĞLAMLIĞI

*İnsan təfəkkürü formalaşdığı dövrlərdən bəri Azərbaycan xalqı barmaqla sayılacaq qədər bəşəri dahilər yetişdirmişdir. Onlardan biri, qətiyyətlə deyərdim ki, birincisi Heydər Əliyevdir.*

***akademik Əli İnsanov***

*Azərbaycan xalqının böyük oğlu, XX və XXI əsrlərin dahi siyasi və dövlət xadimi, Azərbaycanın bir qərinədən artıq dövrünü əhatə edən ən yeni tarixinin yaradıcısı, XX əsrin sonlarında Azərbaycan dövlətçiliyinin qorunub-saxlanılmasında tarix və xalq qarşısında misilsiz xidmətlər göstərmiş Heydər Əliyevin səhiyyə sahəsinə dair nəzəri baxışlarını və əməli fəaliyyətini təhlil edərkən, onun sözün həqiqi mənasında xalq səhiyyəsinin yaradıcısı olması qənaətinə gəlmək olar. Keçmiş Sovetlər məkanında olan başqa dövlətlərlə müqayisə etsək, bu gün fəxrlə və qürurla deyə bilərik ki, bizim səhiyyəmizin uğurları da, maddi-texniki bazası da, kadr potensialı da, peşəkarlıq səviyyəsi də xeyli üstündür. Bunun yeganə səbəbi ondan ibarətdir ki, 1969-1982-ci illərdə respublikamıza rəhbərlik edərkən, eləcə də, 1982-1987-ci illərdə SSRİ-nin rəhbərlərindən biri olarkən, Möhtərəm Prezidentimiz səhiyyəmizin bünövrəsini qoymuş, onun misilsiz yüksəlişini, əsrlərə bərabər tərəqqisini təmin etmiş, həmçinin 1993-cü ildə xalqın təkidli çağırışı ilə yenidən hakimiyyətə qayıtdıqdan sonra təbabətin hərtərəfli inkişafı üçün dövlət səviyyəsində bütün mümkün tədbirləri həyata keçirmişdir.*

Heydər Əliyevin digər sahələrdə olduğu kimi, səhiyyə sahəsində də fəaliyyəti o qədər çoxcəhətlidir ki, onun bu istiqamətdə gördüyü quruculuq və yaradıcılıq işləri, fundamental araşdırmalar bu işə elmi-tədqiqat mövqeyindən yanaşmağı tələb edir. Hazırda Azərbaycan səhiyyəsinin dünya səhiyyə sisteminin mühüm bir strukturuna çevrildiyi bir dövrdə bu istiqamətin öyrənilməsi xüsusi aktuallıq kəsb edir.

Heydər Əliyevin fəaliyyətinin əsas istiqamətləri tədqiq edilərkən, Möhtərəm Prezidentimizin gördüyü işləri xronoloji qaydada işıqlandırmaq zəruriyyəti yaranır. «Heydər Əliyev və xalqın sağlamlığı» mövzusu da məsələyə bu kontekstdən yanaşmağı tələb edir.

Qeyd etmək lazımdır ki, ötən əsrin 60-cı illərinin axırları – 70-ci illərinin əvvəllərində bütövlükdə SSRİ-də olduğu kimi, Azərbaycan cəmiyyətində, o

cümlədən səhiyyə sahəsində inkişaf yerində saymağa başlamışdı. O dövrdə yaranmış vəziyyətə diqqətlə nəzər salanda, onun çox acınacaqlı bir vəziyyətə düşməsini görməmək mümkün deyildi. Belə ki, bir sıra yoluxucu xəstəliklər, o cümlədən vərəm, malyariya, difteriya, poliomielit, məxmərək və başqa xəstəliklər geniş yayılmışdı. Onlara qarşı fəal mübarizə aparmaq, əhalini kütləvi immunlaşdırmaq, ana və uşaqların sağlamlığına qayğını artırmaq, narkomaniyanın inkişafına sipər çəkmək, güclü tibbi xidmət şəbəkəsi yaratmaq lazım idi.

Heydər Əliyev məhz belə bir dövrdə respublikaya rəhbərlik etməyə başladı. XX əsrin 60-cı illərinin axırları – 70-ci illərinin əvvəlləri xalqımızın tarixində Heydər Əliyevin əli ilə yazılmağa başlamış çox mürəkkəb, lakin parlaq səhifələrdir. Bu illər – Heydər Əliyev erası idi, xalqın taleyində və deməli, onun səhiyyə sistemində də yeni dövr idi. Bu dövrdə Azərbaycanda həyatın bütün sahələrində o vaxtadək misli görünməmiş yüksəliş başladı.

1969-cu ilin dekabr ayında respublika Ali Sovetinin yeddinci sessiyasında Heydər Əliyevin təşəbbüsü ilə səhiyyə qanunvericiliyinin əsasları barədə qərar qəbul edilməsi bu sahədə həyata keçirilmiş çoxsaylı və müxtəlif tədbirlərin əsasını təşkil etdi. Qətiyyətlə deyə bilərik ki, Səhiyyə haqqında Azərbaycan SSR Qanunu – Heydər Əliyevin əməyinin məhsuludur.

Heydər Əliyev səhiyyə sahəsinin inkişafı ilə bağlı tədbirlər kompleksinin həyata keçirilməsinə mövcud tibbi obyektlərin abadlaşdırılması və yeni tibb obyektlərinin tikilməsi, əhalinin kütləvi dispanser qeydiyyatına alınması və sahə həkimlərinin işinin fəallaşdırılması məsələlərindən başladı.

«Sağlamlığımızın qeydinə sağlam ikən qalaq» prinsipinin təntənəsi naminə respublikamızda sağlamlıq zonaları və istirahət evləri yaradılmasına, abadlaşdırma işləri aparılmasına və mövcud səhiyyə ocaqlarının profillərinin genişləndirilməsinə xüsusi əhəmiyyət verildi.

70-ci illərdə ucqar rayonlarda və kəndlərdə tibb müəssisələrinin xeyli hissəsi çox köhnə və tamamilə yararsız idi. Buna görə də səhiyyənin səviyyəsini yüksəltmək tədbirləri respublikada səhiyyənin maddi-texniki bazasının möhkəmləndirilməsindən başladı. Rayonların çoxunda xəstəxana və poliklinika binaları tikildi, yaxud mövcud binalar əsaslı təmir edildi. Ana və uşaqlara tibbi xidmət çox aşağı səviyyədə olduğuna görə bu məsələyə xüsusi diqqət yetirildi. Tibb kadrlarının çatışmazlığını aradan qaldırmaq üçün Tibb İnstitutunda və məktəblərində tələbə qəbulu artırıldı, ucqar kənd rayonlarından gələn abituriyentlər üçün güzəştlər tətbiq edildi.

Ümumiyyətlə, 1970-1980-cı illərdə respublikanın şəhər və rayonlarındakı xəstəxana və poliklinikaların, dispanser və tibb məntəqələrinin demək olar ki, yarısı yeni binalarla təmin edildi. Kütləvi informasiya vasitələrində müntəzəm olaraq yeni-yeni tibb müəssisələrinin istifadəyə verilməsi barədə məlumatlar dərc edilirdi. Həmin müəssisələrin bir qismi, məsələn, Respublika Klinik Uroloji Xəstəxana bu növ xəstəliklərdən əziyyət çəkən və o vaxtadək illər boyu ittifaqın müxtəlif şəhərlərinə gedib müalicə kursu keçməyə məcbur olan xəstələr üçün



son dərəcə qiymətli hədiyyə oldu. Neyrocərrahiyyə, diaqnostika, toksikologiya, yanıq, reabilitasiya (əlillər üçün) mərkəzləri və müasir profilli digər tibb müəssisələri açıldı, zəruri tibbi avadanlıqlarla təchiz edilərək xalqın istifadəsinə verildi; həmçinin Elmi-Tədqiqat Oftalmologiya İnstitutu və Elmi-Tədqiqat Onkologiya İnstitutu üçün yeni binalar tikilməyə başlandı.

Səhiyyəmizin inkişafı və möhkəmləndirilməsi üçün Heydər Əliyevin göstərdiyi çox böyük səylər təkcə səhiyyənin maddi-texniki bazasına aid olmadı. Möhtərəm Prezidentimiz keçmiş ittifaqın mərkəzi klinikalarında və xarici ölkələrdə kadr hazırlığının aparılmasına, həmçinin kadrların ixtisasartırma kursları keçmələrinə xüsusi diqqət yetirirdi. 1970-1980-cı illərdə H. Əliyev 30-a yaxın gənc azərbaycanlı alimin müxtəlif ixtisaslar üzrə İttifaq səviyyəsində doktoranturaya qəbul edilməsinə nail oldu. Tibb sahəsində mütəxəssislərin yeni nəslinin bu nümayəndələri də onlara göstərilmiş yüksək etimadı tam doğrultdular və yetkin tədqiqatçılar kimi Vətənə qayıtdılar. Artıq bu gün həmin elmi kadrların çoxu respublika səhiyyə elminin aparıcı təşkilatçıları və rəhbərləridir.

Beləliklə, aparılmış məqsədyönlü tədbirlər nəticəsində Azərbaycan get-gedə daha inamla tibb elminin və səhiyyə praktikasının mərkəzlərindən birinə, onların tətbiq sahəsinin genişlənməsi obyektinə çevrildi.

Möhtərəm Prezidentimiz 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildikdən sonra iqtisadiyyatın bir sıra mürəkkəb sahələrinə, həmçinin səhiyyə sahəsinə rəhbərlik etməyə başladı. SSRİ-də səhiyyə sahəsi güclü və çoxprofilli bir istiqamət idi. Bu istiqamətin inkişafına yeni təkan verən məhz Heydər Əliyev oldu. Elmi-texniki tərəqqinin, o cümlədən tibb elmində, tibb sənayesində və bütövlükdə səhiyyə sistemində elmi-texniki tərəqqinin sürətləndirilməsi ilə bağlı məsələlər bu təkanın ifadəsi idi.

Heydər Əliyev Yer kürəsinin altıda bir hissəsini tutan böyük bir ölkənin həkimlər ordusu arasında – ucqar kəndlərdəki sahə tibb məntəqələrindən başlamış Moskvada və Leninqradda, Kiyevdə və Minskdə, Daşkənddə və Alma-Atada və əlbəttə doğma Bakıda mövcud olan nəhəng tibbi mərkəzlərə qədər hər yerdə çox populyar və məhşur idi.

Ona görə belə idi ki, səhiyyənin və tibb elminin inkişafı üçün Heydər Əliyevin gördüyü tədbirlər əsaslı, yeni və genişmiqyaslı idi, bu tədbirlər dinamik xarakter daşıyırdı. Yenilik, islahat, inkişaf, qurmaq, yaratmaq – Heydər Əliyevin fəaliyyətini xarakterizə edən əsas prinsiplər bunlar idi. Xüsusi qeyd edirik ki, Heydər Əliyev ilk dəfə olaraq Azərbaycanda bu sahəyə rəhbərlik təcrübəsinə əsaslanaraq SSRİ əhalisinin kütləvi şəkildə dispanserləşdirilməsi və səhiyyə sistemində iqtisadi islahatlar keçirilməsi təşəbbüsü ilə çıxış etmişdi.

Beləliklə, Heydər Əliyev cənablarının rəhbərliyi ilə 20-illik bir dövrdə (1969-1987-ci illər) Azərbaycanda 100-lərlə iri müasir səhiyyə obyektləri inşa edildi, respublikada olan tibb müəssisələrinin yarıdan çoxu yenidən quruldu, ambulator-poliklinika şəbəkəsi genişləndirildi, daim geridə qalan kənd səhiyyəsi yüksək inkişaf səviyyəsinə çatdırıldı, Bakıda və respublikanın digər şəhərlərində ittifaq

əhəmiyyətli yüksək ixtisaslaşmış yeni, müasir mərkəzlər istifadəyə verildi, tibb müəssisələri saysız-hesabsız miqdarda müasir cihaz və avadanlıqlarla, tibbi ləvazimatlarla təchiz edildi, ittifaqda və xarici ölkələrdə çoxsaylı və yüksəkixtisaslı elmi-tibbi kadrlar hazırlandı. XX əsrin 80-ci illərinin axırlarında Azərbaycanda sosioloji tədqiqat aparan görkəmli xarici ölkə alimlərindən biri yazmışdır: «Əhalinin hər on min nəfərinə düşən tibb işçilərinin sayına, ixtisaslı kadrların və alimlərin yetişdirilməsinə, yeni-yeni səhiyyə-sağlamlıq ocaqlarının yaradılmasına, müxtəlif ixtisaslar üzrə elmi-tədqiqat tibb institutlarının, elmi mərkəz və laboratoriyaların açılmasına görə Azərbaycan Respublikasının səhiyyə göstəriciləri dünyanın ən qabaqcıl ölkələri ilə müqayisə edilməyə layiqdir. Əlbəttə, bütün bunlar hamısı ölkə başçısı Heydər Əliyevin əhalinin səhiyyə-sağlamlıq işlərinə misilsiz qayğısının, məqsədyönlü fəaliyyətinin nəticəsidir».

Heydər Əliyevin rəhbərliyi ilə 70-80-ci illərdə tibb elminin və bütövlükdə səhiyyənin inkişafı sahəsində əldə edilmiş nailiyyətlər postsovet dövründə həyata keçirilən tədbirlərin əsasını təşkil etmişdir. Bəli, məhz müdrik Prezidentimizin uzaqgörənliyinin və titanik əməyinin bəhrəsi olan nəhəngmiqyaslı işlərin nəticəsində Azərbaycan müstəqillik əldə etdikdən sonra yaranmış ağır iqtisadi şəraitdə səhiyyəmiz məhz həmin möhkəm təməlin əsasında, həmin yüksəkixtisaslı tibb kadrları, möhkəm maddi-texniki bazası, tibbi cihaz və avadanlıqları ilə inamla yaşamış, uğurla tərəqqi etmiş və bu gün xalqımızın sağlamlığı keşiyində əzmlə dayanır.

Qeyd etmək lazımdır ki, Sovet İttifaqının süqutu ilə əlaqədar əldə edilmiş müstəqillik şəraitində yeni bazar münasibətlərinin yaranması və inkişafı, dağılmış ittifaqın subyektləri arasında iqtisadi əlaqələrin qırılması, həmçinin dövlətin ictimai-siyasi sisteminin dəyişməsi digər sahələrdə olduğu kimi, səhiyyədə də böhran vəziyyəti yaratmışdı. 1991-1993-cü illərdə ölkədə hökm sürən hakimiyyətsizlik, xaos və hərc-mərclik dövründə əhalinin sağlamlığının qorunmasına ayrılan vəsait, inflyasiya nəzərə alınmaqla, on dəfələrlə azalmışdı. İmmunoprofilaktika sahəsində iş əslində dayandırılmış, infeksion xəstəliklərin qalıq ocaqları kəskin şəkildə fəallaşmış, epidemiyalar başlamış, əhaliyə hamılıqla və pulsuz tibbi yardım göstərilməsi sistemi tədricən dağılmışdı.

Yalnız 1993-cü ildə Möhtərəm Prezidentimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra vəziyyətin qiymətləndirilməsinə dair səylər göstərildi, səhiyyənin uzunsürən, dərin böhrandan çıxarılması üçün yollar axtarılmasına başlandı və ölkə rəhbərinin bilavasitə rəhbərliyi, məxsusi diqqəti və dəstəyi ilə Səhiyyə Nazirliyi tərəfindən ardıcıl və məqsədyönlü olaraq müəyyən tədbirlər həyata keçirildi.

Respublika səhiyyəsinin mövcud potensialından maksimum səmərə ilə istifadə etməklə əhalinin sağlamlığının qorunması işini yaxşılaşdırmaq məqsədilə ölkə rəhbəri, möhtərəm Prezidentimiz Heydər Əliyev cənablarının göstərişinə uyğun olaraq, səhiyyədə geniş islahatlar proqramı işlənib hazırlandı və müvəffəqiyyətlə həyata keçirilməyə başlandı. Prezidentimizin Azərbaycan Respublikasında «Səhiyyə sahəsində İslahatlar üzrə Dövlət Komissiyasının yaradılması barədə» 13 mart 1998-ci il tarixli Sərəncamı bu işlərin daha geniş miqyasda və sürətlə aparılması üçün şərait yaratdı.



Səhiyyə orqanlarının idarəetmə aparatlarında bir-birini təkrarlayan struktur bölmələrin ixtisar edilməsi, əhalinin tələbatından çox olan çarpayı fondunun azaldılması və müalicə-profilaktika müəssisələri tərəfindən əhaliyə göstərilən pullu xidmətlərin genişləndirilməsi, özəl, qismən və tam təsərrüfat prinsipi ilə fəaliyyət göstərən tibb müəssisələri yaradılması yolu ilə əhaliyə göstərilən tibbi xidmətin keyfiyyət və səmərəsinin artırılması aparılan islahatların əsasını təşkil edir.

Möhtərəm Prezidentimizin tövsiyəsinə uyğun olaraq, səhiyyə sistemində islahatlara yuxarıdan, yəni Səhiyyə Nazirliyinin aparatından başlandı. Səhiyyə Nazirliyi və Bakı Baş Səhiyyə İdarəsinin aparatında struktur dəyişiklikləri aparılaraq eyni funksiyaları icra edən vəzifələr və idarələr ləğv edildi, struktur bölmələrin sayı azaldıldı. Respublikanın şəhər və rayon səhiyyə orqan və müəssisələrində də analoci struktur dəyişiklikləri aparıldı. Ölkəmizdə səhiyyənin qanunvericilik bazası təkmilləşdirildi, səhiyyə sahəsində 15 qanun işlənib hazırlandı və qəbul edildi.

Keçid dövründə səhiyyənin ən çox narahatlıq doğuran problemlərindən biri onun maliyyələşdirilməsi idi. Səhiyyənin illərlə kəsirlə maliyyələşdirilməsi əksər tibb müəssisələrinin maddi-texniki bazasını xeyli zəiflətmişdi. Bu vəziyyət respublika əhalisinin yüksək keyfiyyətli tibbi xidmətlə təmin edilməsi üçün əlavə büdcədənkənar mənbələrin axtarılması və tətbiq edilməsi zərurətini yaratdı; belə mənbələrdən biri tibb müəssisələrinin tam və ya qismən özünümaliyyələşdirmə sisteminə keçidi oldu. Göstərilən istiqamət islahatlar dövrünün başlanğıc mərhələsində həyata keçirilən tədbirlərin ana xəttini təşkil etdi və artıq real nəticələr göz qabağındadır. Belə ki, özünümaliyyələşdirməyə keçidlə əlaqədar, struktur və idarəetmə sistemlərində təşkilati dəyişikliklər aparılmış, təqribən 10 min ştat vahidinin büdcədən çıxarılması hesabına 10 milyard manata qədər vəsaitə qənaət edilmiş, müxtəlif güzəştlərdən istifadə edən yüz minlərlə soydaşımıza hər il ixtisaslaşdırılmış pulsuz tibbi yardım göstərmək mümkün olmuşdur. Səhiyyə Nazirliyi sistemində 2001-ci ildə 70 milyard manata qədər vəsait əldə edilmişdir ki, bu da faktiki büdcə vəsaitinin (264,4 milyard manat) 26,5%-ni təşkil edir. Məhz büdcədənkənar vəsaitlər hesabına son illər 300-dən artıq tibb müəssisəsində cari və əsaslı təmir işləri aparılmış, yeni müasir tibb texnikası və avadanlıqlar alınmışdır.

Son illər səhiyyədə aparılan islahatlar çərçivəsində əsas nailiyyətlərdən biri özəl səhiyyə sisteminin tətbiq edilməsidir. İslahatlar dövründə Möhtərəm Prezidentimizin tövsiyələrinə uyğun olaraq Azərbaycan səhiyyə sistemində bu istiqamətdə əhəmiyyətli işlər görülmüş, müvafiq hüquqi-normativ baza yaradılmış, 1999-cu ildə «Özəl tibb fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir. Son illər respublikamızda müasir standartlara cavab verən xeyli özəl tibb müəssisəsi açılmışdır. Hazırda geniş fəaliyyət göstərən «Əfsanə» stasionar müalicə-diaqnostika mərkəzi (Şərur rayonu), «Nord Star» doğum evi, «Ekzimer-lazer» mərkəzi, «Medicalcenter», «Mediklab», «Diamed» müəssi-

səsi, «Euromed» özəl tibb mərkəzi, «Diasis» Azərbaycan-Türkiyə birgə müəssisəsi, «Medservis» şirkəti və b. ixtisaslı müalicə və tibbi xidmətə görə əhali tərəfindən rəğbətlə qarşılanmışdır. 2002-ci ildə ən müasir tibb avadanlıqları ilə təchiz edilmiş çoxprofilli özəl tibb müəssisəsi – «Leyla Şıxlinskayanın klinikası» – istifadəyə verilmiş, açılış mərasimində Rusiya Səhiyyə Nazirliyinin rəhbərliyi klinikanın ən müasir standartlara cavab verdiyini vurğulamışdır.

İslahatlar çərçivəsində əsas istiqamətlərdən biri də sığorta təbabət sisteminin tətbiqidir. 1999-cu ildə «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının qanunu qəbul edilmiş, icbari tibbi sığortanın bütün hüquqi və normativ sənədləri Nazirlər Kabineti tərəfindən təsdiq edilmişdir. Bununla yanaşı, 10-a qədər könüllü tibbi sığorta kampaniyaları yaradılmış və fəaliyyət göstərir.

Möhtərəm Prezidentimiz yoluxucu xəstəliklərlə mübarizə işini praktik səhiyyənin əsas strateci problemlərindən hesab edərək, öz fəaliyyətində, tövsiyyə və tapşırıqlarında profilaktik və əksepidemik tədbirlərin təkmilləşdirilməsinə xüsusi diqqət yetirmişdir.

Qeyd etmək lazımdır ki, keçmiş SSRİ respublikaları ilə iqtisadi əlaqələrin qırılması nəticəsində peyvənd materialları ilə təminatda fasilələrin olması vəziyyəti gərginləşdirmiş və praktik olaraq 1992-ci ildə uşaqların immunizasiya işi dayandırılmışdı. 90-cı illərin əvvəllərindən başlayaraq respublikamızda bir sıra infeksion xəstəliklərə, o cümlədən difteriya və poliomielitə görə vəziyyət xeyli gərginləşmişdi. 1990-cı ildə Azərbaycanda poliomielitlə xəstələnmə hadisələri Avropa üzrə xəstələnmənin 50%-dən çoxunu təşkil edirdi. Yaranmış gərgin vəziyyətdə Möhtərəm Prezidentimizin rəhbərliyi altında aparılan məqsədyönlü tədbirlər nəticəsində 1993-cü ildən başlayaraq Azərbaycana BMT-nin Uşaq Fondunun xətti ilə vaksin preparatlarının gətirilməsinə nail olundu. Dünya Səhiyyə Təşkilatı və BMT-nin Uşaq Fondunun köməyi ilə təhlükəsiz immunizasiya praktikası üçün «soyuq zəncir» sistemi yaradıldı. Respublika əhalisi infeksion xəstəliklərə qarşı peyvəndə cəlb edildi.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyev cənablarının peyvənd tədbirində və Dünya Sağlamlıq gününə həsr olunmuş yığıncaqda şəxsən iştirakı infeksion xəstəliklərə qarşı mübarizə tədbirlərinin dövlət səviyyəsində həyata keçirildiyini bir daha təsdiq etdi. Aparılmış məqsədyönlü tədbirlər nəticəsində difteriya xəstəliyi 1995-ci illə müqayisədə 1996-cı ildə 6 dəfə azaldı. Son 2 il müddətində isə 1 difteriya hadisəsi belə qeydə alınmamışdır. Həmçinin poliomielit xəstəliyinin ləğvi üzrə görülən işlərə Möhtərəm Prezidentimiz şəxsən başçılıq etmişdir. 1995-ci ilin aprel ayında Ş. Ələsgərova adına 5 saylı doğum evində yeni doğulmuş uşağa ilk damcı poliomielit vaksinini verməklə ölkə rəhbərimiz bu tədbiri ümumdövlət səviyyəsinə qaldırmaqla xəstəliklə mübarizə işinə tibb işçiləri ilə yanaşı respublikanın bütün ictimaiyyətinin cəlb edilməsinə nail olmuşdur. Aparılmış məqsədyönlü tədbirlərin nəticəsi olaraq, 1996-cı ildən etibarən Azərbaycanda poliomielit xəstəliyi müşahidə edilmir. Vaxtilə poliomielit xəstəliyinə görə endemik ocaq sayılan Azərbaycan təkcə özü və ətraf ölkələr üçün deyil, bütövlükdə Avropa regionu üçün qorxu yaratdığı halda, hazırda bu xəstəlikdən azad diyara çevrilmişdir.



Respublikamızda malyariya xəstəliyinə qarşı da irihəcmli təşkilati, müalicə-profilaktik və əksepidemik tədbirlər həyata keçirilmişdir. Aparılmış tədbirlər nəticəsində Azərbaycanda malyariya ilə xəstələnmə hallarının kəskin azaldılmasına nail olmaq mümkün olmuşdur. Belə ki, xəstəlik 1996-cı illə müqayisədə 2002-ci ildə 25,9 dəfə azalmışdır.

Son bir neçə il ərzində respublika ərazisində bir hadisə belə vəba, qara yara, tulyaremiya kimi xüsusi təhlükəli infeksiyaların, eləcə də kütləvi bağırsaq infeksiyaları və qida zəhərlənmələrinin qeydə alınmaması yoluxucu xəstəliklərlə mübarizə strategiyasının düzgün qurulmasının bariz nümunəsidir.

İnfeksion xəstəliklərlə mübarizə istiqamətində əsas nailiyyətlərdən biri də qızılca ilə xəstələnmə səviyyəsinin kəskin surətdə azalmasıdır. 1994-cü illə müqayisədə xəstəlik 30 dəfə azalmışdır. Həmçinin tetanus və göyöskürək xəstəlikləri son 5 il ərzində respublikada sporadik hallarda qeydə alınmışdır.

Virus hepatiti xəstəliyinə qarşı da ciddi tədbirlər görülür. Belə ki, «Qlobal Fondu»nun yardımı ilə Azərbaycanda 2001-ci ildən B Hepatiti əleyhinə vaksinasiya kampaniyasına başlanmışdır və hazırda bu iş müvəffəqiyyətlə davam etdirilir. 2002-ci ilin 2 mart tarixində Respublika Doğum evində Səhiyyə Nazirliyinin «Qlobal Fondu» ilə birlikdə Azərbaycana gətirdiyi hepatit əleyhinə vaksinlərin təqdim edilməsi mərasimində Möhtərəm Prezidentimiz Heydər Əliyevin iştirakı sevimli rəhbərimizin immunoprofilaktikaya məxsusi diqqətinin bariz nümunəsidir.

Beləliklə, görülən tədbirlər nəticəsində son illər respublikamızda bir sıra yoluxucu xəstəliklərlə mübarizə işində əhəmiyyətli və stabil nəticələr əldə edilmiş, spesifik profilaktik tədbirlərlə idarə olunan infeksiyalar üzərində nəzərəçarpacaq nailiyyətlər qazanılmışdır.

Vərəmlə mübarizə problemi əsas prioritet sahə kimi daim diqqət mərkəzində olmuşdur. 2000-ci il vərəmə qarşı mübarizə ili elan olunmuş, bir sıra mühüm tədbirlər həyata keçirilmiş, bu iş 2001-2002-ci illərdə davam etdirilmiş və görülən işlər beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir.

Respublikamızda bir milyondan artıq qaçqın və məcburi köçkünün olması və bu vəziyyətin yoluxucu xəstəliklərin yayılması üçün əlverişli şərait yaratmasına baxmayaraq, Dünya Səhiyyə Təşkilatının ekspertləri Azərbaycan səhiyyəsinin immunoprofilaktika sahəsində və ilk növbədə Avropa miqyasında qorxulu yoluxucu xəstəliklər sayılan poliomielit və difteriyaya görə əldə etdiyi yüksək nailiyyətləri dəfələrlə qeyd edərək öz təşəkkürlərini bildirmişlər.

Ermənistanın Azərbaycana təcavüzü nəticəsində işğal olunmuş ərazilərdən öz doğma yurdunu tərk etməyə məcbur olmuş bir milyondan artıq qaçqın və məcburi köçkünün tibbi təminatı ilə bağlı problemlərin həlli Möhtərəm Prezidentimizin daim diqqət mərkəzində durur. Müdrik rəhbərimizin tövsiyə və tapşırıqlarına uyğun olaraq, Səhiyyə Nazirliyi və onun yerlərdəki orqan və müəssisələri göstərilən tibbi yardımın yaxşılaşdırılması istiqamətində məqsədyönlü iş aparırlar.

Belə ki, Səhiyyə Nazirliyinin baş mütəxəssisləri, klinik xəstəxana və elmi-tədqiqat institutlarının əməkdaşlarından ibarət ixtisaslaşdırılmış briqadalar mütəmadi olaraq yerlərə göndərilir, qaçqınlar arasında xəstəliklərin aşkar edilməsi məqsədilə müayinələr aparılır və onlara yüksəkixtisaslı tibbi yardım göstərilir, epidemioloci vəziyyət öyrənilərək, əksepidemik tədbirlər həyata keçirilir.

Möhtərəm Prezidentimiz Heydər Əliyev cənablarının göstərişi ilə Səhiyyə Nazirliyi tərəfindən 2000-2002-ci illərdə qaçqınların daha çox məskunlaşdığı rayonlarda respublikanın aparıcı mütəxəssislərinin iştirakı və rentgen-flüoroqrafiya, laborator-diaqnostika və digər müayinə üsullarının köməyi ilə qaçqın və məcburi köçkünlər arasında müayinələr aparılmışdır. Bu müayinələr zamanı müxtəlif orqanların patologiyası ilə 15 mindən artıq xəstə qeydiyyata götürülmüş, onlardan 3300-ə qədəri stasionar müalicəyə cəlb edilmişdir.

Respublika Prezidenti Möhtərəm Heydər Əliyev cənablarının göstərişi ilə həyata keçirilmiş bu genişmiqyaslı sağlamlaşdırma tədbirləri əhali tərəfindən böyük razılıq və minnətdarlıqla qarşılanmışdır. Prezident Aparatına, Səhiyyə Nazirliyinə və kütləvi informasiya vasitələrinə göndərilmiş çoxsaylı teleqram və məktublar bunu bir daha təsdiq edir.

Möhtərəm Prezidentimiz Heydər Əliyev cənablarının qaçqınlara dövlət səviyyəsində göstərdiyi yüksək humanizm, qayğı və diqqət, bu istiqamətdə verdiyi konkret tapşırıqlar digər əlaqədar orqanlar kimi, Səhiyyə Nazirliyinin də qarşısında yeni vəzifələr qoyur. Bu vəzifələrin layiqincə yerinə yetirilməsi üçün bütün səhiyyə işçiləri qüvvələrini səfərbər etməyə hazırdırlar.

Son illər səhiyyənin prioritet istiqamətlərindən biri olan ana və uşaqların sağlamlığının mühafizəsi sahəsində də xeyli işlər görülmüşdür.

Belə ki, 1996-cı ildə BMT-nin Əhali Fondu «Azərbaycanda reproduktiv sağlamlıq və ailə planlaşdırılması sahəsində xidmətlərin keyfiyyətli planlaşdırılması və yaxşılaşdırılması üzrə milli proqram»ın Səhiyyə Nazirliyi tərəfindən işlənib hazırlanması təşəbbüsünü irəli sürmüş və bu işi maliyyələşdirmişdir. Eyni zamanda «Təhlükəsiz analıq və yenidoğulmuşlara qulluq» üzrə proqram həyata keçirilir. Körpə uşaqların ana südü ilə qidalanmasının əvəzsiz rolunu nəzərə alaraq 1995-ci ildə «Ana Südü ilə Qidalanma üzrə Milli Komitə» yaradılmış və ötən dövr ərzində ana südü ilə qidalanan uşaqların sayı 15% artmışdır.

Aparılmış məqsədyönlü tədbirlərin nəticəsi olaraq, son illər respublikamızda uşaqlara göstərilən tibbi xidməti xarakterizə edən statistik göstəricilərin xeyli yaxşılaşması müşahidə edilir. Belə ki, uşaq ölümü göstəricisi 1995-ci ildə 18,4 promillidən 2000-ci ildə 12,6 promilliyə enmiş, həmçinin perinatal ölüm azalmışdır. Əhalinin sağlamlığının əsas göstəricisi olan ümumi ölümün səviyyəsi də azalaraq əhalinin hər 100.000 nəfərinə 1990-cı ildə 12,5-dən 2000-ci ildə 8,2-yə düşmüşdür.

Qeyd etmək lazımdır ki, respublikamızda əhalinin sağlamlıq göstəricilərinin yaxşılaşması, o cümlədən uşaq ölümünün azalması məsələləri 2002-ci ilin oktyabr ayında YAP-ın yaradılmasının 10 illiyinə həsr edilmiş tədbirdə möhtərəm Prezidentimiz tərəfindən vurğulanmışdır.



Əsrin «bəlası» sayılan narkomaniya ilə mübarizə sahəsində nəzərəçarpacaq işlər görülmüşdür. Prezidentimizin sərəncamlarına müvafiq olaraq narkomaniyaya, narkotik və psixotrop vasitələrin qanunsuz dövriyyəsinə qarşı ümummilli mübarizə proqramı çərçivəsində nazirliyin daxili ehtiyatları hesabına həmin kontingent üçün stasionar, anonim müalicə kabinetləri yaradılmış, Təhsil Nazirliyi və Daxili İşlər Nazirliyi üçün narkomaniyaya dair metodik tövsiyyələr, eləcə də bir sıra direktiv və normativ sənədlər işlənib hazırlanmışdır.

Son illərdə səhiyyə obyektləri şəbəkəsinin genişləndirilməsi, 100-lərlə tibb müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması və yenidən qurulması istiqamətində xeyli işlər görülmüşdür.

Belə ki, Möhtərəm Prezidentimiz Heydər Əliyev cənablarının iştirakı ilə ilk özəl tibb xidməti şirkəti – «Mediklab», «Respublika Artroloci Mərkəzi», «Ailə Sağlamlıq Mərkəzi», Azərbaycan Tibb Universitetinin tədris korpusu və akt zalı açılaraq istifadəyə verilmiş, həmçinin Elmi-Tədqiqat Ağ Ciyər xəstəlikləri İnstitutunda, Bakı şəhər 4 saylı Vərəm əlyehinə dispanserində, Gəncə şəhər Vərəm Əleyhinə Dispanserində və b. tibb müəssisələrində müasir səviyyədə təmir və yenidənqurulma işləri aparılmış, müasir cihaz və avadanlıqlarla təchiz olunan və dünya standartlarına cavab verən müəssisələr əhalinin xidmətinə verilmişdir.

Həmçinin, Maştağa qəsəbəsində yerləşən Respublika Psixiatriya xəstəxanasında məhkəmə-psixiatriyası ekspertizası və ciddi recimdə saxlanılan xəstələr üçün şöbələr istifadəyə verilmiş, V.Axundov adına Elmi-Tədqiqat Milli Profilaktika İnstitutunda yoluxucu xəstəliklər klinikası açılmış, Mərdəkan qəsəbəsində yerləşən Respublika Veteranlar Xəstəxanasında və Respublika Dəri-Zöhrəvi dispanserində müasir səviyyədə təmir işləri aparılmışdır. Respublikamızda ilk dəfə olaraq Nüvə-Maqnit Rezonansı Mərkəzi açılmış, ən müasir aparatla təchiz edilərək əhalinin istifadəsinə verilmişdir.

Möhtərəm Prezidentimiz Heydər Əliyev cənablarının Yaponiyaya uğurlu səfəri sayəsində təmənnasız yardım proqramı çərçivəsində Yaponiya hökumətinin 6 milyon dollar məbləğində yardımı ilə Elmi-Tədqiqat Ağ Ciyər Xəstəlikləri İnstitutu, Ə.Qarayev adına 2 saylı Klinik Uşaq Xəstəxanası və Ş. Ələsgərova adına 5 saylı Doğum evi ən müasir tibb avadanlıqları ilə təchiz edilmişdir.

Eyni zamanda Fransa hökumətinin qrantı hesabına 8 tibb müəssisəsində sutəmizləyici qurğu quraşdırılıb istifadəyə verilmişdir.

2000-ci ilin dekabr ayında Səhiyyə Nazirliyinin müasir standartlara cavab verən, MDB çərçivəsində ən qabaqcıl yer tutan və ən müasir tibb avadanlıqları ilə təchiz edilmiş Mərkəzi Klinik Xəstəxanasının açılışı və mərasimdə möhtərəm Prezidentimizin iştirakı əsrin sonunda səhiyyəmiz tarixində ən əlamətdar hadisə oldu. Hazırda xəstəxanada müvəffəqiyyətlə bir sıra mürəkkəb müayinələr və cərrahi əməliyyatlar, o cümlədən respublikamızda ilk dəfə olaraq açıq qəlb operasiyaları icra edilir.

Tibb müəssisələrində aparılan təmir və yenidənqurma işləri hazırda da davam etdirilir. Belə ki, 2002-ci ildə Elmi-Tədqiqat Kardiologiya İnstitutunda və Respub-

lika Uroloji Xəstəxanasında əsaslı təmir işləri aparılaraq başa çatdırılmışdır. Hazırda hər iki müəssisənin müasir tibb avadanlıqları ilə təchizi üzrə ciddi iş gedir.

Son illər əczaçılıq sahəsində də təqdirəlayiq işlər görülmüşdür. Belə ki, respublika əhalisini və müalicə-profilaktika müəssisələrini müasir, keyfiyyətli və zəruri dərman preparatları ilə təmin etmək, həmçinin, daxili və xarici sərmayəni Azərbaycan Əczaçılıq sənayesinin yaradılmasına cəlb etmək məqsədilə Səhiyyə Nazirliyi «Farmsintez Holdinq» Birgə Müəssisəsinin təsis olunmasında iştirak etmiş, 2000-ci il dekabrın 1-də müəssisənin təntənəli açılışı olmuşdur. Yaradılmış birgə müəssisənin təsisçilərindən biri olan «Azərsintez» müəssisəsi respublikamız üçün çox vacib olan və Dünya Səhiyyə Təşkilatının tələblərinə cavab verən infuzion məhlulların, digər təsisçi – «Azərfarm» şirkəti isə 100-ə qədər dərman maddələrinin, o cümlədən İnsanovin və İnsanov Bronxoliti dərman preparatlarının istehsalı ilə məşğul olur.

Respublikamızda səhiyyə sahəsində aparılan islahatlar çərçivəsində Tibb Universitetində təqdirəlayiq işlər görülmüşdür. Son illər möhtərəm Prezidentimizin iştirakı ilə Universitetin 10 kafedra, kitabxana və informasiya mərkəzi yerləşən yeni tədris binası və akt zalı açılaraq istifadəyə verilmişdir. Aspirantlar üçün nəzərdə tutulan əlavə yataqxana istifadəyə hazır vəziyyətdədir. Həmçinin, Universitetin cərrahi xəstəliklər klinikasının tikilib istifadəyə verilməsi üzrə ciddi iş aparılır. Bundan əlavə, bütün kafedralar kompyuterləşdirilmiş və onların maddi-texniki bazaları möhkəmləndirilmişdir. Müstəqil dövlətimizin hərbi həkimlərə olan ehiyacını nəzərə alaraq hərbi-tibbi fakültə açılmışdır.

Son illərdə Azərbaycan tibb elmi sürətlə inkişaf etmiş, bir çox mühüm nailiyyətlər əldə edilmişdir. 2001-ci ilin mart ayında gərgin elmi-təşkilati fəaliyyətlərinə və tibb elminin inkişafındakı xidmətlərinə görə ölkəmizin tanınmış alimləri – əməkdar elm xadimləri: Səhiyyə Naziri Əli İnsanov, Tibb Universitetinin rektoru Əhliman Əmiraslanov və Milli Onkologiya Mərkəzinin direktoru Cəmil Əliyev dünyanın ən mötəbər elm ocaqlarından olan Rusiya Tibb Elmləri Akademiyasının və Azərbaycan Milli Elmlər Akademiyasının akademikləri seçilmişlər. Həmçinin, 2002-ci ildə Elmi-Tədqiqat Milli-Profilaktika İnstitutunun direktoru Namiq Əliyev Rusiya Tibb Elmləri Akademiyasının üzvü seçilmişdir. Tanınmış alimlərimizin Rusiya Tibb Elmləri Akademiyasına həqiqi üzv seçilmələri möhtərəm Prezidentimizin beynəlxalq aləmdə möhtəşəm tarixi simaya çevrilmiş nəhəng şəxsiyyətinə, bütövlükdə Azərbaycan tibb elminə olan böyük ehtiramın və yüksək qiymətin bariz ifadəsidir.

Səhiyyəmizin inkişafında cəfakeşlik göstərən tibb işçilərinin fədakar əməyi möhtərəm Prezidentimiz tərəfindən daim yüksək qiymətləndirilmişdir. Belə ki, möhtərəm Prezidentimizin 17 iyun 2000-ci il tarixli fərmanı ilə Azərbaycan Tibb Universitetinin 70 illiyi münasibətilə elm, təhsil və səhiyyə sahələrində xidmətlərinə görə Universitetin 9 əməkdaşı «Şöhrət» ordeni, 15 əməkdaşı «Tərəqqi» medalı ilə təltif edilmiş, 14 əməkdaşa «Əməkdar elm xadimi», 15 əməkdaşa «Əməkdar müəllim», 17 əməkdaşa «Əməkdar həkim» fəxri adları verilmişdir.



Həmçinin ölkə Prezidentinin 2 noyabr 2000-ci il tarixli fərmanı ilə Səhiyyə Nazirliyinin yaradılmasının 80 illiyi ərəfəsində səhiyyə işçilərinin böyük bir qrupu yüksək dövlət mükafatları ilə mükafatlandırılmış, o cümlədən, 5 nəfər «Şöhrət» ordeni, 25 nəfər «Tərəqqi» medalı ilə təltif edilmiş, 8 nəfərə «Əməkdar elm xadimi», 34 nəfərə «Əməkdar həkim» fəxri adları verilmişdir.

MDB dövlətləri arasında və Dünya səhiyyə sistemində Azərbaycan səhiyyəsinin nüfuzu getdikcə artmaqdadır. Bu gün Azərbaycan bütövlükdə dünyaya inteqrasiya olunur. Azərbaycan səhiyyəsi indi dünya səhiyyəsində özünün layiqli yerini tutan və qiymətini alan bir strukturdur. Təsadüfi deyil ki, 1998-ci ilin mayın 11-dən 16-dək keçirilən Dünya Səhiyyə Təşkilatının ali orqanının sessiyasında ölkəmizdə səhiyyə sahəsində aparılan islahatlar yüksək qiymətləndirilmiş və Azərbaycana göstərilən yardımın 1999-cu ildən etibarən üç dəfə artırılması qərara alınmış, Azərbaycan Respublikasının Səhiyyə naziri Dünya Səhiyyə Təşkilatının Baş Assambleyasının vitse-prezidenti seçilmişdir. Bu, həmin təşkilat tərəfindən respublika səhiyyəsi üçün ayrılan yardımların daha da artmasına real zəmin yaratmışdır. Təkcə onu qeyd etmək kifayətdir ki, MDB dövlətlərinin səhiyyə sahəsində əməkdaşlıq üzrə şurasında Azərbaycan Respublikasında səhiyyədə aparılan uğurlu islahatlar və əldə edilən müvəffəqiyyətlərə görə Səhiyyə Nazirliyinin rəhbərliyi «Qızıl Medal»a layiq görülmüşdür.

Ölkəmizdə səhiyyə sahəsində aparılan islahatların uğurlu nəticələri 2002-ci ildə Qafqazda yoxlamalar aparan Amerika Departamentinin xüsusi inspektorları tərəfindən də yüksək qiymətləndirilmişdir. İnspektorlar qeyd etmişlər ki, Qafqazda Bakı yeganə şəhərdir ki, dünya standartları səviyyəsində tibb müəssisələri yaradılır və bunun geniş şəbəkəsi inkişaf etməkdədir.

Beləliklə, möhtərəm Prezidentimiz Zati-aliləri cənab Heydər Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycan səhiyyəsində aparılan islahatlar nəticəsində əhaliyə göstərilən tibbi xidmət xeyli yaxşılaşdırılmış, səhiyyənin hüquqi-normativ bazası təkmilləşdirilmiş, tibb müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilmiş, əsas dərmanlarla təchizi təmin edilmiş, kadrların ixtisasları artırılmış, səhiyyə sistemində tam və ya qismən özünümaliyyələşdirmə sisteminə keçilmiş, tibb idarələri dövlət büdcəsi ilə yanaşı, əlavə maliyyə vəsaiti əldə etmiş, tibb müəssisələrinin böyük bir qismində təmir və yenidənqurma işləri aparmaq mümkün olmuş, özəl təbabət sistemi tətbiq edilmiş və özəl tibb müəssisələri yaradılmış, Avropa və dünya standartlarına cavab verən tibb müəssisələri əhalinin istifadəsinə verilmiş, əhalinin sağlamlıq və səhiyyə göstəriciləri xeyli yaxşılaşmışdır.

Xatırladaq ki, XXI əsrin gəlməsi ilə dünyada yeni eranın başlanğıcı qoyulmuşdur. Hər bir sahədə olduğu kimi tibb sahəsində də yeniləşmə prosesinin reallığa çevriləcəyi şəksizdir. Şübhə yoxdur ki, bütün zamanlarda sınaqlardan uğurla çıxan Azərbaycan səhiyyəsi möhtərəm Prezidentimiz Heydər Əliyevin rəhbərliyi ilə yeni eranın sınaqlarından da zəfərlə çıxacaqdır.